21. Təhsil müəssisəsinin pedaqoji şurasının üzvü-dür, metodiki komissiya və bölmələrin işində iştirak edir.

22. Gənclərin peşəyönümü işinin təşkilində və tədris qruplarının komplektləşdirilməsində iştirak edir.

**III. Baş ustanın hüquqları.**

Peşə təhsili müəssisəsinin baş ustası aşağıdakı hüquqlara malikdir:

26. Tədris-istehsalat və tərbiyə prosesinin təkmilləşdirilməsinə dair pedaqoji şuranın müzakirəsinə məsələlər çıxarır və təkliflər verir.

27. Qabaqcıl istehsalat təlimi ustaları və tədris istehsalat emalatxanaları işçilərinin mükafatlandırılması və əmək intizamını pozan işçilərin tənbeh olunması barədə təkliflər verir.

28. Baş usta pedaqoji işçilər kateqoriyasına daxildir və ixtisasına uyğun dərs demək hüququ vardır.

29. İstehsalat təlimi ustalarının seçilib yerləşdirilməsində rəyini bildirir.



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN MEXANİKİ HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.03.2000-ci il tarixli 250 №-li əmri ilə təsdiq edilmişdir.*

**I. Ümumi müddəalar.**

1. Peşə təhsili müəssisəsində mexanik vəzifəsi mövcud maşın-mexanizm və tədris-istehsalat avadanlığının sayına əsasən müəyyən edilir.

Kənd təsərrüfatına kadr hazırlayan peşə məktəbi və peşə litseylərində mexanik eyni zamanda maşın-traktor parkının müdiri hesab olunur.

2. Peşə təhsili müəssisəsinin mexaniki öz fəaliyyətində rəhbər təşkilatların əmr və sərəncamlarına, avadanlıqdan istifadəyə dair normativ sənədlərə, eləcə də direktorun əmr və sərəncamlarına əsaslanır.

3. Mexanik bilavasitə baş ustanın rəhbərliyi altında işləyir.

ABBYY PDF Transformer 3.0 Click here to buy www.ABBYY.com

4. Mexanik təhsil müəssisəsinin maşın-mexanizm və tədris-istehsalat avadanlığının qorunub saz saxlanmasına məsuliyyət daşıyır.

5. Təhsil mütəxəssisi mexaniki direktorun əmri ilə təyin edilir və azad olunur.

**II. Mexanikin vəzifələri.**

6. Tədris-istehsalat və yardımçı avadanlıq və mexanizmlərin, həmçinin elektrik şəbəkəsinin və paylayıcı qurğuların fasiləsiz və təhlükəsiz işləməsini təmin edir, avadanlıqdan istifadə olunmasına dair qaydalara əməl olunmasına nəzarət edir.

7. Mövcud qaydalara uyğun olaraq avadanlığın illik, rüblük və aylıq təmir plan və qrafiklərini hazırlayır və onların yerinə yetirilməsini təmin edir.

8. Bütün təmir növləri üzrə tələb olunan material və ehtiyat hissələrini müəyyənləşdirir, onların vaxtında əldə olunmasını və ya hazırlanmasını təmin edir, təmirin dəyərini hesablayır və sənədləşdirir, avadanlığın istismarı üçün tələb olunan ehtiyat hissələrinə sifariş hazırlayır.

9. Səmərəli təmir üsullarının tətbiq olunmasına çalışır, maşın-mexanizm və avadanlığın təmiri zamanı qiy-mətli materialların və əlvan metalların digər azqiymətli materiallarla əvəz olunmasının məqsədəuyğunluğu barədə təkliflər verir.

10. Tədris emalatxanasında, laboratoriya və tədris poliqonunda avadanlığı müəyyən olunmuş normalara uyğun yerləşdirir.

11. Avadanlığın texniki vəziyyətinə vaxtaşırı profilaktiki baxış keçirir, eyni zamanda onların texnoloji dəqiqliyini yoxlayır.

12. Qaldırıcı mexanizmlərin, qurğuların, tədris emalatxanalarının, nəqliyyat vasitələrinin təhlükəsiz işləməsinə nəzarəti təşkil edir.



13. Dövlət texniki nəzarət orqanları tərəfindən yox-lanması tələb olunan maşın, mexanizm və qurğuları, yük-sək təzyiqli çənləri və digər cihazları vaxtında baxışa ha-zırlayır. Avtomobil və digər nəqliyyat vasitələrinin vaxtında Dövlət Yol Polisi tərəfindən yoxlanılıb qeydiyyatdan keçməsini təmin edir.

14. Baş usta ilə birlikdə tələb olunan enerji və yanacağın miqdarını müəyyən edir.

15. Təhsil müəssisəsinin yeni aldığı avadanlığın qəbulunu və təmirdən çıxmış avadanlığın istismara verilməsini təmin edir.

16. İxtisaslı fəhlə kadrları hazırlanması tələblərinə cavab verməyən, istehsalata yaramayan köhnə modelli avadanlığın yeni avadanlıq ilə əvəz olunması üçün tədbirlər görür.

17. Təhsil müəssisəsinin işçiləri və şagirdləri ilə avadanlığın təmiri, saxlanılması və istismarı barədə söhbətlər aparır.

18. Tədris qruplarına avadanlığın verilməsi və təhvil alınmasına ardıcıl nəzarəti təşkil edir, avadanlığın saxlanmasına və istismarına qayğısız münasibət olarsa bu barədə baş ustaya məlumat verir.

19. Təhsil müəssisəsinin mühasibatlığı ilə birlikdə inventar kitabı üzrə avadanlığın uçotunu aparır, mənəvi və fiziki cəhətdən köhnəlmiş avadanlığı silinmək üçün hazırlayır.

20. Tədris emalatxanalarında yanğına qarşı tədbirlərin hazırlanması və onların yerinə yetirilməsi üçün tədbirlər görür.

21. Təsdiq olunmuş qrafikə əsasən təhsil müəssisəsinin rəhbərinə avadanlıq və onların təmiri haqqında hesabat təqdim edir.

22. Elektrik enerjisindən düzgün və qənaətlə istifadə olunmasına nəzarət edir. Elektrik qurğularının

istifadə əmsalının yüksəldilməsi və enerji itkisinin azaldılması üçün tədbirlər görür.

23. Quraşdırılmamış və ya müvəqqəti istifadə olunmayan avadanlığın düzgün saxlanılmasını təmin edir.

**III. Mexanikin hüquqları.**

24. Təmir xidməti işçilərinin seçilməsinə, onların iş yerlərinin dəyişdirilməsinə, mükafatlandırılmasına, tənbeh və işdən azad edilməsinə dair təhsil müəssisəsinin rəhbərliyinə təkliflər verir.

25. Avadanlıqdan istifadə qaydaları pozulduqda və ondan istifadə zamanı qəza təhlükəsi yarandıqda avadanlığın istismarını dayandırır və bu barədə təcili təhsil müəssisəsinin rəhbərinə məlumat verir.

26. Avadanlıqdan düzgün istifadə məsələlərinə dair mexanikin göstərişləri təhsil müəssisəsinin istehsalat təlimi ustaları və digər istehsalat işçiləri üçün məcburidir.

Qeyd: Tədris-istehsalat avadanlığına – dəzgahlar, traktor, kombayn, avtomaşın, kənd təsərrüfatı, meliorasiya və inşaat sahələrində istifadə olunan texnika və digər maşın və mexanizmlər daxildir.



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN İSTEHSALAT TƏLİMİ USTASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir*

**I. Ümumi müddəalar.**

1. Peşə təhsili müəssisəsinin istehsalat təlimi ustasının əsas vəzifəsi şagirdlərin peşə təlimini, vətənpərvərlik, əmək və mənəvi tərbiyəsini, istehsalat təlimi üzrə tədris plan və proqramlarının yerinə yetirilməsini təşkil etməkdən və şagirdlər üçün təhlükəsiz iş şəraiti yaratmaqdan ibarətdir.

2. İstehsalat təlimi ustası məişətdə, davranışda, nizam-intizama riayət etməkdə, əməyə münasibətdə şagirdlərə nümunə olmalı, onlara müraciətdə pedaqoji nəzarəti gözləməli, tələbkar və ədalətli olmalı, şagird şəxsiyyətinə hörmətlə yanaşmalı, onların müsbət keyfiyyətlərini aşkar edib inkişaf etdirməyi bacarmalı və şagird kontingentinin saxlanmasından ötrü tədbir görməlidir.

ABBYY PDF Transformer 3.0
Click here to buy
www.ABBYY.com
ABBYY PDF Transformer 3.0
Click here to buy
www.ABBYY.com